**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**



# Azərbaycan Ombudsmanının işğaldan azad edilmiş ərazilərimizdəki dağıdılmış qəbiristanlıqlarda həyata keçirdiyi yerində araşdırmaların nəticələrinə dair

# H E S A B A T

**Bakı - 2022**

**MÜNDƏRİCAT**


Giriş..............................................................................................................3-4

**I. Füzuli rayonunda həyata keçirilmiş yerində araşdırmanın nəticələri..........5-9**

1. *Füzuli şəhər qəbiristanlığı*.......................................................................6
2. *Qaraxanbəyli qəbiristanlığı*.....................................................................7
3. *Dədəli qəbiristanlığı*................................................................................8
4. *Kürdlər qəbiristanlığı*..............................................................................9

**II. Zəngilan rayonunda həyata keçirilmiş yerində araşdırmanın nəticələri..10-12**

1. *Məmmədbəyli qəbiristanlığı*...................................................................11
2. *Ağalı qəbiristanlığı*..................................................................................12

**III. Ağdam rayonunda həyata keçirilmiş yerində araşdırmanın nəticələri..13-16**

1. *Ağdam Şəhidlər xiyabanı*.........................................................................14
2. *Uzundərə qəbiristanlığı*...........................................................................15
3. *Qarağacı qəbiristanlığı*............................................................................16

Nəticə.................................................................................................17-19

## Giriş

Etnik təmizləmə, deportasiya, etnik qruplara qarşı qırğınlar, digər millətlərə qarşı dözümsüzlük xalqlar arasında mehriban qonşuluq münasibətlərinin qurulmasına və dayanıqlı inkişafa ciddi təhdiddir.

Təəssüf hissi ilə qeyd edilməlidir ki, hər zaman müxtəlif yollarla tarixi saxtalaşdırmaqla dünya ictimaiyyətinə həqiqətdən uzaq "faktları" təqdim edərək, insanları yanıltmağa çalışan Ermənistan uzun illərdir ki, işğalçılıq siyasətini davam etdirir.

Ermənistanda azərbaycanlılara qarşı uzun illər ərzində formalaşdırılan etnik zəmində nifrət və dözümsüzlük siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı öz doğma yurdlarını tərk etməyə məcbur olunmuşdur. Ermənistan hakimiyyəti qərəzli və planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bu insanlara maddi və mənəvi zərər verməklə kifayətlənməmiş, eyni zamanda onlardan geriyə qalan mədəni irsi də məhv etmişdir.

Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti bir milyona yaxın insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olmuşdur.

Beynəlxalq hüququ heçə sayaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ilə yaxın müddət ərzində işğal altında saxlayan Ermənistan bu ərazilərdə soyqırım cinayətləri törətməklə yanaşı, etnik təmizləmə siyasətini davam etdirmişdir. Həmin ərazilərdə mülki obyektlərlə yanaşı, dini, mədəni və tarixi abidələrin qəsdən məhv edilməsi faktları aidiyyəti qurumlar tərəfindən müxtəlif vaxtlarda aparılan araşdırmalar zamanı öz təsdiqini tapmışdır.

İşğal dövründə Azərbaycanın tarixi və əzəli torpaqlarında bütün mülki obyektlər, yaşayış məntəqələri, tarixi-mədəni, dini memarlıq abidələri - məscidlər, dini sitayiş yerləri, qəbiristanlıqlar Ermənistan tərəfindən amansızcasına dağıdılmış, təhqir edilmiş və talanmışdır.

İşğal dövründə Azərbaycan vətəndaşları öz yaxınlarının məzarlarını ziyarət etmək imkanından məhrum edilmiş, ümumilikdə 900-dən çox qəbiristanlıq ya tamamilə dağıdılaraq yerlə bir edilmiş, ya da cəsədlər çıxarılmış, təhqir olunmuş, qəbirüstü abidələr talan edilmişdir.[1]

Mənəvi dəyərləri təhqir etməklə azərbaycanlılara məxsus qəbirlərə qarşı vandalizm aktlarının törədilməsi Ermənistanın digər millətlərə və dinlərə mənsub insanlara qarşı dözümsüz münasibətini bir daha sübut edir.

Ermənistan azərbaycanlı əhaliyə qarşı insanlıq əleyhinə, habelə müharibə və digər çoxsaylı cinayətlər törətməklə yanaşı, beynəlxalq humanitar hüquq normalarının, o cümlədən "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının, YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il tarixli Konvensiyasının, "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" 1949-cu il tarixli Cenevrə Konvensiyasının, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyasının müddəalarını kobud şəkildə pozmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) işğaldan azad olunmuş Füzuli, Zəngilan, Ağdam rayonlarında yerində araşdırmalar həyata

---

[1] https://bit.ly/35vg6NM

keçirmişdir. Yerində araşdırmaların əsas məqsədi azərbaycanlılara məxsus olan və işğal dövründə vandalizm aktları törədilməklə kütləvi şəkildə dağıntılara məruz qalmış qəbiristanlıqların vəziyyətini monitorinq etmək olmuşdur.

Hesabat Ermənistan tərəfindən dağıdılmış Füzuli şəhər qəbiristanlığında, həmin rayonun Qaraxanbəyli, Dədəli, Kürdlər, Zəngilan rayonunun Məmmədbəyli, Ağalı, Ağdam rayonunun Qarağacı, Uzundərə qəbiristanlıqlarında və Şəhidlər xiyabanında Ombudsmanın həyata keçirdiyi yerində araşdırmalar zamanı toplanmış faktları özündə əks etdirir.

Hesabat insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatlara, müxtəlif ölkələrin milli insan hüquqları təsisatlarına təqdim edilmək üçün hazırlanmışdır.

***Səbinə Əliyeva***

***Azərbaycan Respublikasının***
***İnsan Hüquqları üzrə Müvəkkili***
***(Ombudsman)***

# I. Füzuli rayonunda həyata keçirilmiş yerində araşdırmanın nəticələri




Füzuli rayonu 23.08.1993-cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 05.01.1994-cü il tarixində Azərbaycan Respublikası silahlı qüvvələrinin Horadiz əməliyyatı nəticəsində rayonun 22 yaşayış məntəqəsi işğaldan azad olunmuşdur. Bu gün həmin ərazilərdə rayon əhalisinin 50%-ə qədəri yaşayır.

Hazırda rayonda 45 inzibati ərazi dairəsi olmaqla 2 şəhər (Füzuli, Horadiz), 17 qəsəbə və 82 kənd yaşayış məntəqəsi vardır, eyni zamanda, 21 bələdiyyə fəaliyyət göstərir.

Birinci Qarabağ müharibəsi dövründə Ermənistanın törətmiş olduğu müharibə cinayətləri nəticəsində rayon sakinlərindən 657 nəfər qətlə yetirilmiş, 400 nəfərədək şəxs müharibə ilə əlaqədar əlillik statusu almış, 181 nəfər əsir və itkin düşmüşdür.

Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən Ermənistanın təxribatlarına cavab olaraq 27.09.2020-ci il tarixindən başlayan əks hücum əməliyyatları nəticəsində 17.10.2020-ci il tarixində Füzuli rayonu işğaldan azad edilmişdir.

Ombudsmanın yerində araşdırması zamanı Ermənistan tərəfindən işğal dövründə dağıdılmış Füzuli şəhər qəbiristanlığında, həmçinin rayonun Qaraxanbəyli, Dədəli, Kürdlər qəbiristanlıqlarında bütün məzarların kütləvi şəkildə dağıdıldığı və təhqir edildiyi, eyni zamanda həmin ərazilərin minalandığı aşkar edilmişdir.

Ermənistan işğal dövründə Füzuli şəhəri və rayonun kəndlərindəki qəbiristanlıqları dağıtmış, oradakı mərmərdən olan məzar daşlarını və onların ətrafındakı dəmir hasarların əksəriyyətini sökərək aparmış, qəbirləri təhqir etmiş, tarixi, dini izləri silməyə çalışmışdır.[2] Hətta qəbirlər baş tərəfdən qazılaraq dəfn olunmuş şəxslərin kəllə sümükləri qızıl dişləri götürmək üçün çıxarılmış, bəzi kəndlərdə qəbiristanlıqlar buldozerlə dağıdılaraq təhqir edilmiş, yerində əkin sahələri salınmışdır.[3]

Ermənistan tərəfindən qəbirlərin dağıdılaraq təhqir edilməsi - beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulması faktı Füzuli şəhər qəbiristanlığında çəkilmiş videogörüntülərdə də öz təsdiqini tapır.[4]

Qeyd olunmalıdır ki, ölkəmizdə akkreditasiya olunmuş xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların rəhbərləri, diplomatları və hərbi attaşeləri də Füzuli rayonunun işğaldan azad edilmiş kəndlərinə səfər edərkən bu faktların şahidi olmuşlar.

---

[2] https://bit.ly/3stsIg4

[3] https://bit.ly/3M8qiwk https://bit.ly/3roxtHc https://bit.ly/35CMwpe

[4] https://bit.ly/36D8GIA

## *1. Füzuli şəhər qəbiristanlığı*








Füzuli şəhər qəbiristanlığının vəziyyətinin monitorinqi zamanı orada üzəri kiril əlifbası ilə yazılmış bir çox müsəlman qəbirlərinin, şəhərin tanınmış insanlarının heykəllərinin dağıdılması, parçalarının isə ətrafa səpələnməsi, ərazilərin minalanması müşahidə edilmişdir ki, bu da Ermənistanın Azərbaycana qarşı törətdiyi vandalizm və barbarizm əməllərini bir daha əyani faktlarla təsdiq edir.

## *2. Qaraxanbəyli qəbiristanlığı*













Ombudsmanın Füzuli rayonu Qaraxanbəyli qəbiristanlığında yerində araşdırma həyata keçirdiyi zaman Ermənistanın Azərbaycana qarşı törətdiyi barbar əməllər nəticəsində qəbiristanlıqdakı əksər məzarların vandalizmə məruz qalaraq dağıdıldığı (sataraq gəlir əldə etmək üçün qızıl dişlərin çıxarılması məqsədilə qəbirlərin qazıldığı, vəfat etmiş şəxslərin kəllə sümüklərinin çıxarıldığı və s.), həmçinin məzarların ətrafında minaların basdırıldığı bir daha əyani faktlarla təsdiq olunmuşdur.

## *3. Dədəli qəbiristanlığı*








Ombudsmanın Füzuli rayonu Dədəli qəbiristanlığında yerində araşdırma həyata keçirdiyi zaman bir daha faktlarla təsdiq olunmuşdur ki, bütün məzarlar Ermənistan tərəfindən dağıntılara və vandalizmə məruz qalmışdır. Belə ki, məzarlar əsasən baş tərəfdən qazılmaqla kəllə sümükləri çıxarılmış və sonra satılaraq gəlir əldə edilməsi məqsədilə qızıl dişləri götürülmüşdür.

## *4. Kürdlər qəbiristanlığı*








Ombudsmanın Füzuli rayonu Kürdlər qəbiristanlığında həyata keçirdiyi yerində araşdırma zamanı qəbiristanlığın tamamilə dağıdıldığı, yerində taxıl əkildiyi müəyyən edilmişdir. Eyni zamanda, vəfat etmiş şəxslərin qızıl dişlərinin götürülməsi məqsədilə burada da məzarların baş tərəfindən qazıldığı, beləliklə də, Ermənistan tərəfindən azərbaycanlılara qarşı vandalizm və barbarizm əməllərinin törədildiyi bir daha əyani faktlarla təsdiq olunmuşdur.

## II. Zəngilan rayonunda həyata keçirilmiş yerində araşdırmanın nəticələri




Zəngilan rayonu 29.10.1993-cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlılar 67 gün tam mühasirə şəraitində saxlanılmışdır. Birinci Qarabağ müharibəsi dövründə Ermənistanın törətmiş olduğu müharibə cinayətləri nəticəsində Zəngilan rayonundan 191 nəfər qətlə yetirilmiş, 110 nəfər müharibə ilə əlaqədar əlillik statusu almış, 44 nəfər itkin düşmüş hesab edilmişdir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Zəngilan rayonunda 138 mədəni-məişət obyekti, 83 qəsəbə və kənd, 13 tarixi abidə dağıdılmış, yandırılmış və talan edilmişdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən Ermənistanın təxribatlarına cavab olaraq 27.09.2020-ci il tarixindən başlayan əks hücum əməliyyatları nəticəsində 20.10.2020-ci il tarixində Zəngilan rayonu Ermənistanın işğalından azad olunmuşdur.

İşğal dövründə azərbaycanlılara məxsus qəbirlərin qəsdən dağıdılması hallarını monitorinq etmək, mövcud insan hüquq pozuntularını müəyyən etmək və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə Ombudsman Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kənd qəbiristanlıqlarında yerində araşdırma həyata keçirmişdir.[5]

Monitorinq zamanı işğaldan azad edilmiş digər rayon və şəhərlərdə olduğu kimi Zəngilanda da bütün yaşayış məntəqələri, sosial infrastruktur obyektləri, tarixi, mədəni və dini abidələr kimi, qəbiristanlıqların da Ermənistanın vandalizm siyasəti nəticəsində tamamilə dağıdıldığı, ərazilərin isə minalandığı müşahidə edilmişdir.

Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq qəbiristanlıqları qəsdən və kütləvi surətdə dağıtmış, meyitlər üzərində təhqiredici hərəkətlər edərək kəllə sümüklərindən qızıl dişləri çıxarmış, mərmərdən hazırlanmış sinə və başdaşlarını sökərək aparmış,[6] Azərbaycana məxsus tarixi izləri silməyə çalışmışdır.[7]

---

5 https://bit.ly/3AnylA5
6 https://bit.ly/3JiBG6E
7 https://bit.ly/3fB80F1

## *1. Məmmədbəyli qəbiristanlığı*








Ombudsmanın Zəngilan rayonu Məmmədbəyli qəbiristanlığında yerində araşdırması zamanı da Ermənistanın Azərbaycana qarşı törətdiyi vandalizm əməlləri bir daha əyani faktlarla təsdiq olunmuşdur. Belə ki, vəfat etmiş şəxslərin qızıl dişlərinin tapılıb götürülməsi üçün məzarlar qazılmış, kəllə sümükləri çıxarılmış, mərmərdən hazırlanmış sinə və başdaşları çıxarılıb aparılmış, ərazi isə əzizlərinin məzarını ziyarət etməyə gələcək azərbaycanlıların məhv edilməsi və ya ağır xəsarətlər alması məqsədilə minalanmışdır.

## *2. Ağalı qəbiristanlığı*








Ombudsmanın Zəngilan rayonu Ağalı qəbiristanlığında monitorinq aparmaq məqsədilə yerində araşdırması zamanı digər qəbiristanlıqlarda olduğu kimi burada da bir dənə də olsun dağıdılmamış qəbrə rast gəlmək mümkün olmamışdır.  Bütün məzarlar qazılmış, uzun illər əvvəl vəfat etmiş insanların kəllə sümükləri çıxarılmış, gəlir əldə edilməsi məqsədilə qızıl dişləri qoparılıb götürülmüş, mərmərdən olan məzar daşları oğurlanıb aparılmışdır.

## III. Ağdam rayonunda həyata keçirilmiş yerində araşdırmanın nəticələri




Ağdam şəhəri 23.07.1993 cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

1994-cü il may ayının 12-dək davam edən hərbi təcavüz nəticəsində isə Ağdam rayonu ərazisinin 846,7 kvadrat kilometri, yəni ümumi ərazisinin 77,4 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğala məruz qalmış Ağdam şəhəri və rayonun 89 kəndi bəşər tarixində bənzəri olmayan bir vəhşiliklə darmadağın edilmişdir.[8]

Birinci Qarabağ müharibəsi dövründə Ermənistanın törətmiş olduğu müharibə cinayətləri nəticəsində Ağdamda 5897 nəfər qətlə yetirilmiş, 3531 nəfər müharibə ilə əlaqədar əlillik statusu almış, 1871 nəfər uşaq valideynini itirmiş, 126 mindən çox (1993) şəxs öz doğma ev-eşiyindən didərgin düşmüşdür.

Ermənistanın hərbi təcavüzü nəticəsində Ağdam rayonunun 48 sənaye və tikinti obyekti, 598 mədəni-məişət obyekti, 122 qəsəbə və kəndi, 27 tarixi abidəsi dağıdılmış, yandırılmış və talan edilmişdir.

10.11.2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanata əsasən, 20.11.2020-ci ildə işğalçı Ermənistan silahlı qüvvələri Ağdam rayonunu tərk etmişdir.

Ombudsmanın Ermənistan tərəfindən işğal dövründə dağıdılmış Ağdam Şəhidlər xiyabanında, həmçinin Uzundərə və Qarağacı qəbiristanlıqlarında həyata keçirdiyi yerində araşdırma zamanı oradakı bütün məzarların amansızcasına kütləvi şəkildə dağıdılaraq təhqir edildiyi, məzarların qazıldığı, vəfat etmiş şəxslərin kəllə sümüklərinin çıxarıldığı, satılaraq gəlir əldə edilməsi məqsədilə qızıl dişlərin götürüldüyü, mərmərdən olan məzar daşlarının oğurlandığı, məzarları ziyarət etməyə gələnlər arasında kütləvi insan tələfatının baş verməsi üçün ərazilərin minalandığı müşahidə edilmişdir.

[8] https://bit.ly/3JecSww

## *1. Ağdam Şəhidlər xiyabanı*








Ombudsman Ağdam Şəhidlər xiyabanın vəziyyətini monitorinq etmək məqsədilə yerində araşdırma həyata keçirərkən Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun və Birinci Qarabağ müharibəsinin digər şəhidlərinin dəfn olunduğu Ağdam Şəhidlər xiyabanının da tamamilə dağıdılaraq yerlə-yeksan edildiyi müəyyən edilmişdir. Hətta bir çox məzarların yeri hələ də məlum deyil, digər qəbiristanlıqlarda olduğu kimi burada da eyni məqsədlə məzarların qazılmış, dəfn olunmuş şəxslərin qızıl dişlərinin qoparılıb götürülməsi üçün kəllə sümükləri çıxarılmış, mərmərdən olan məzar daşları talanmışdır. Bir daha əyani faktlarla olunmuşdur ki, insan tələfatına səbəb olmaq məqsədilə ərazi minalanmışdır.

## *2. Uzundərə qəbiristanlığı*













Ombudsmanın qəbiristanlıqların dağıdılması faktlarını qeydə almaq məqsədilə həyata keçirdiyi yerində araşdırma çərçivəsində Ağdam rayonu Uzundərə qəbiristanlığında da Ermənistan tərəfindən gəlir əldə etmək, habelə Azərbaycana məxsus tarixi izləri süni şəkildə silmək məqsədilə törədilmiş vandalizm əməlləri, azərbaycanlılara məxsus bütün məzarların dağıdılması, dəfn olunmuş şəxslərin kəllə sümüklərinin qazılıb çıxarılması, mərmərdən olan məzar daşlarının sökülüb aparılması, yaxınlarının ziyarətinə gələcək şəxslər arasında kütləvi insan tələfatına səbəb olmaq üçün ərazilərin minalanması faktları təsdiq olunmuşdur.

### 3. *Qarağacı qəbiristanlığı*








Məlumata görə, Ağdam şəhərinin cənub səmtində, 5 kilometrlik məsafədə yerləşən, təxminən uzunluğu 2-3 kilometr, eni də 1,5-2 kilometr olan Qarağacı qəbiristanlığının 3 min il yaşı vardır. Burada bizim dövrümüzə gəlib çatan bir qəbirüstü kitabənin isə 1174-cü ilə aid olduğu təsdiqlənmişdir. İşğal dövründə qəbiristanlıq və buradakı dörd türbə tamamilə dağıdılaraq məhv edilmişdir. Ombudsman Ağdam rayonu Qarağacı qəbiristanlığında yerində araşdırma həyata keçirdiyi zaman Ermənistanın Azərbaycana qarşı törətdiyi vandalizm əməlləri bir daha aşkar faktlarla təsdiq olunmuşdur. Bu link vasitəsilə qəbiristanlığın videogörüntüsünə baxaraq, hazırkı vəziyyəti ilə tanış olmaq olar: https://bit.ly/3HK0a8y

## Nəticə

Göründüyü kimi, Azərbaycan Ombudsmanının Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində tamamilə dağıdılaraq təhqir edilmiş Füzuli şəhər qəbiristanlığı və rayonun Qaraxanbəyli, Dədəli, Kürdlər, Zəngilan rayonunun Məmmədbəyli, Ağalı, Ağdam Şəhidlər xiyabanı və rayonun Qarağacı, Uzundərə qəbiristanlıqlarında həyata keçirdiyi yerində araşdırmalar çərçivəsində aşağıdakı faktlar müəyyən edilmişdir:

1. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlandığı dövrdə şəhər, rayon və kəndlərimizlə bərabər, mədəni, dini və tarixi abidələr, qəbiristanlıqlar vandallıqla kütləvi şəkildə dağıdılmış və təhqir edilmişdir.

2. Vəfat etmiş əzizlərinin məzarını ziyarət etməyə gələn insanlar arasında tələfata səbəb olması üçün əksər qəbiristanlıqların ərazisində işğal dövründə Ermnistan silahlı qüvvələri tərəfindən minalar basdırılmışdır. Hazırda minaların dəqiq xəritələri Ermənistan tərəfindən ölkəmizə təqdim edilmədiyinə, verilmiş xəritələrin dəqiqlik faizinin isə çox aşağı olmasına görə həmin ərazilərə səfər edən dinc mülki insanlar minaların qurbanına çevrilərək həlak olur, yaxud ağır dərəcəli bədən xəsarətləri alıraq sağlamlıqlarını itirirlər.

Biz hələ də Ermənistan dövlətinin minaların zərərsizləşdirilməsinə dair öz üzərinə düşən vəzifələrini qeyd-şərtsiz yerinə yetirməsini və bölgədə davamlı sülhə, insan hüquqlarına hörmət etməsi üçün səy göstərməsini gözləyirik.

Minaların yaşayış yerlərinin, xüsusən çayların, yol kəsişmələrinin və qəbiristanlıqların yaxınlığında basdırılması beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərinin, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının və onların I Əlavə Protokolunun kobud şəkildə pozulmasıdır.

3. Ermənistanın işğalı altında olmuş ərazilərimizdə yerləşən qəbiristanlıqlardakı ağ və qara mərmərdən olan bahalı məzar daşları və onların ətrafındakı dəmir hasarlar sökülüb aparılmış, xalqımıza məxsus tarixi izlərin silinməsinə çalışılmışdır. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbəsi işğaldan azad edildikdən sonra bəzi evlərin zirzəmisində Azərbaycanlılara məxsus qəbiristanlıqlardan məqsədli şəkildə çıxarılmış qəbir daşlarının yığıldığı aşkar edilmişdir.[9] Bu fakt bir daha sübüt edir ki, qarşı tərəf qəbir daşlarını qəsdən talamış, lakin aparmağa imkan tapa bilməmişdir.

4. Hətta bəzi kəndlərdəki (Füzuli rayonunun Kürdlər, Yuxarı Seyidəhmədli və digər kəndləri) qəbiristanlıqlar buldozerlə dağıdılaraq təhqir edilmiş, yerində əkin sahələri salınmışdır.

5. Azərbaycan Respublikasına akkreditasiya olunmuş xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların rəhbərləri, diplomatları və hərbi attaşeləri, ölkəmizdə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının nümayəndələri də işğaldan azad edilmiş ərazilərimizə səfər edərkən orada yerləşən qəbiristanlıqların dağıdılması faktlarının

[9] https://bit.ly/3Iq5s96

şahidi olmuşlar.

Təəssüflə qeyd etmək istərdik ki, Azərbaycana qarşı sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı digər çoxsaylı cinayət əməllərini törətdiyinə görə Ermənistan dövlətinə bu günə qədər beynəlxalq səviyyədə istər hüquqi, istərsə də siyasi və iqtisadi baxımdan heç bir sanksiya tətbiq edilməmişdir.

Məhz elə buna görədir ki, də heç bir zaman beynəlxalq təzyiqlərə məruz qalmayacağına tam şəkildə əmin olan və bundan daha da ruhlanan Ermənistanın siyasi-hərbi rəhbərləri münbit cəzasızlıq mühitindən istifadə edərək Azərbaycana qarşı bu kimi ağır cinayət əməllərini törətməkdən çəkinməmişdir.

Ermənistan tərəfindən işğal edilmiş, BMT tərəfindən tanınan Azərbaycan ərazilərində etnik təmizləmə və soyqırımı həyata keçirilmiş, Azərbaycan toponimləri erməniləşdirilmiş, yüzlərlə tarixi-mədəni abidələrlə yanaşı, mövcud olan 60-dan çox məscid, 200-ə yaxın ziyarətgah dağıdılmış və yarıuçuq məscidlərdə heyvan saxlamaqla dini dəyərlərimiz təhqir edilmiş, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri aparılaraq qriqoryanlaşdırmış və ya dağıdılmışdır.

Bundan əlavə işğal dövründə Azərbaycan vətəndaşları öz yaxınlarının məzarlarını ziyarət etmək imkanından məhrum edilmiş, ümumilikdə 900-dən çox qəbiristanlıq ya tamamilə dağıdılmış, ya da cəsədlər çıxarılmış, təhqir olunmuş, qəbirüstü abidələr talan edilmişdir.[10]

Ermənistan tərəfindən ölkəmizə məxsus tarixi, mədəni və dini abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününküləşdirilməsi müharibə cinayətidir. BMT Təhlükəsizlik Şurasının 2017-ci il tarixi 2347 saylı qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması, həmçinin sülh və təhlükəsizlik məsələsidir.

Ermənistan azərbaycanlı mülki əhaliyə qarşı sülh və insanlıq əleyhinə, habelə müharibə və digər çoxsaylı cinayətlər törətməklə yanaşı, beynəlxalq humanitar hüquq normalarının, o cümlədən “Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında” 1954-cü il tarixli Haaqa Konvensiyasının, ona əlavə olunn 1999-cu il tarixli protokolun, “Arxeoloji irsin qorunması haqqında” 1992-ci il tarixli Avropa Konvensiyasının, YUNESKO-nun “Ümumdünya mədəni və təbii irsin qorunması haqqında” 1972-ci il tarixli Konvensiyasının, “Müharibə qurbanlarının müdafiəsi haqqında” 1949-cu il Cenevrə Konvensiyalarının, onlara əlavə olunan Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair 1977-ci il tarixli I Protokolun, “Avropanın memarlıq irsinin qorunması haqqında” 1985-ci il tarixli Konvensiyanın, Avropa Şurasının “Arxeoloji irsə dair Avropa Konvensiyası”nın (Qrenada Konvensiyasının) müddəalarını kobud şəkildə pozmuşdur.

Təbii ki, azərbaycanlı mülki əhaliyə qarşı insanlıq və bəşəriyyət əleyhinə, habelə digər çoxsaylı cinayətlər törətmiş Ermənistan tərəfindən ölkəmizə məxsus tarixi, mədəni və dini abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününküləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il

---

[10] https://bit.ly/35kjN99

Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954-cü və 1970-ci il Konvensiyalarının kobud şəkildə pozulmasıdır və bunlar müharibə cinayətləridir.

Lakin bütün bunlara baxmayaraq 30 ilə yaxın işğal dövründə Azərbaycan tərəfinin tələblərinə baxmayaraq, nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən UNESCO tərəfindən bu məsələlərin araşdırılması ilə bağlı faktaraşdırıcı missiya göndərilməmişdir.

Ermənistandan fərqli olaraq Azərbaycan tərəfindən heç bir məzarlığın və ya qəbiristanlığın qəsdən dağıdılması qeydə alınmamışdır. Hətta 44 günlük Vətən müharibəsi müddətində belə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın mülki obyektlərinə, habelə tarixi, mədəni və dini təyinatlı binalarına hər hansı hücum əməliyyatı həyata keçirilməmişdir.

Qeyd etmək lazımdır ki, Ermənistan tərəfindən Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürülmüş azərbaycanlılar amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirilmiş, daha sonra onların nəşləri kütləvi şəkildə basdırılmışdır.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında daha bir kütləvi məzarlıq Xocavənd rayonunun Edilli kəndində aşkar edilmişdir. Burada Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə girovluqda saxlanılarkən qətlə yetirilmiş 15-20 nəfər azərbaycanlı mülki şəxslərin nəşinin 3 metr dərinlikdə basdırıldığı, bu kəndin ərazisində başqa kütləvi məzarlıqların da olması ehtimal edilir.[11]

İşğaldan azad edilmiş ərazilərimizdə, xüsusən Xocavənd, Kəlbəcər, Ağdam və Füzuli rayonlarında, eləcə də Şuşa şəhərinin ətrafında bir çox kütləvi və fərdi məzarlıqların olması ilə bağlı məlumatlar vardır.

Bu ərazilər minalardan təmizləndikcə aşkara çıxan kütləvi məzarlıqlar Ermənistanın Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətini, dinc insanlara qarşı törətmiş olduğu müharibə cinayətlərini bir daha sübut edir. Bütün bu faktlar Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması üçün əsasdır.

Azərbaycan Ombudsmanı olaraq, işğaldan azad edilmiş Azərbaycan ərazilərindəki dini abidələrin, qəbirstanlıqların dağıdılaraq təhqir edilməsi, eyni zamanda həmin ərazilərin minalanması faktlarını şiddətlə qınayır, aidiyyəti beynəlxalq təşkilatları, milli insan hüquqları institutlarını bu kimi çoxsaylı vandalizm və barbarizm əməllərini törətməklə insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına rəvac vermiş Ermənistanın siyasi-hərbi rəhbərliyinə qarşı beynəlxalq hüquqi məsuliyyət müəyyən edən zəruri tədbirlər görməsi üçün qəti mövqe nümayiş etdirməyə çağırıram.

---

[11] https://bit.ly/3C09Ol6

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**“Facebook”: ombudsman.az**

**“Twitter”: az_ombudsman**

**“Instagram”: ombudsman_ azerbaijan**

**“Youtube”: Ombudsman of Azerbaijan**

**Çağrı Mərkəzi: (012) 916**

**Tel/Fax: (+99412) 493 74 22, (+99412) 498 23 65**

**Elektron poçt: ombudsman@ombudsman.az**

**apparat@ombudsman.az**

**Rəsmi internet səhifəsi: www.ombudsman.az**

**AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, II Ala qapı**